# Şəhid zabitin doğum günü qeyd olunub



44 günlük Vətən müharibəsində igidliklə döyüşərək şəhidlik zirvəsinə yüksələn, "Azərbaycan bayrağı", "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" orden və medallarına layiq görülən baş leytenant Babək Bəxtiyar oğlu Allahverdiyevin doğum günü qeyd edilib.

Abşeron rayonunun rəhbərliyi, hüquq-mühafizə orqanlarının, siyasi partiyaların nümayəndələri, şəhid ailələri və qazilər İkinci Fəxri xiyabana gələrək şəhidin məzarını ziyarət ediblər. Vətənimizin bütövlüyü uğrunda canından keçmiş bütün şəhidlərimizin əziz xatirəsi yad olunub, ruhlarına dualar oxunub, məzarları üzərinə tər çiçəklər düzülüb.

Şəhidin döyüş yoldaşları Babəkin göstərdiyi şücaətlərdən söz açıblar, komandirlik bacarığını vurğulayıblar. Sonra tədbirə gələn məktəblilər vətənpərvərliyə və qələbəyə aid şeirlər səsləndiriblər.

Anım tədbiri Xırdalan şəhərindəki Heydər Əliyev Mərkəzində davam etdirilib. Burada şəhidlərin müqəddəs xatirəsi bir dəqiqəlik sükutla yad edilib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Çıxış edənlər ölkəmizdə, o cümlədən Abşeron rayonunda şəhid və qazi ailələrinə böyük diqqət və qayğıkeşlik göstərildiyini qeyd ediblər.

Sonda Abşeron məktəblilərinin və incəsənət nümayəndələrinin iştirakı ilə bədii kompozisiya təqdim olunub.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2022.- 4 iyun.- S.6.